

# Qəşəm ÇIRAQLI

Amansız ölüm qələm yoldaşımız Qəşəm Çıraqlını aramızdan apardı.

Qəşəm Cavad oğlu Qəhrəmanov 1936-cı il yanvarın 1-də Tərtər rayonunun Dəmirlər kəndində anadan olmuşdur. Burada kənd orta məktəbinin yeddinci sinfini bitirib, 3 saylı Bakı feldşerlik məktəbində təhsil almışdır. Bir il Sarıclı və Dəmirlər kəndlərində feldşer məntəqəsinin müdiri vəzifəsində işləmişdir. 1958-1962-ci illərdə Bakı Su Səhiyyə İdarəsinin tabeliyində gəmi tibb işçisi, 1962-1971-ci illərdə gəmi təmiri zavodunun tibb məntəqəsində feldşer vəzifələrində çalışmışdır. 1965-1970-ci illərdə Odessa Dəniz Donanması Mühəndisləri İnstitutunda qiyabi təhsil almışdır. 1971-ci ildən təqaüdə çıxana qədər respublika Su Təsərrüfatı Nazirliyində aparıcı mühəndis vəzifəsində işləmişdir.

Bədii yaradıcılığa ötən əsrin 60-cı illərində başlamışdır. İlk qələm təcrübələri "Azərbaycan gəncləri", "Xəzər kommunisti" qəzetlərində işıq üzü görmüşdür. "Dünya həmin dünyadır", "Fikir burulğanı", "Yollar sabaha gedir", "Ömrümün işığı", "Bir işıq ucundan tutub gedirəm", "Yolumuz ömrümüz boyda", "Bu dünya tanrıya səcdə yeridir" kimi kitabları, əsərlərinin çoxcildliyi çapdan çıxıb.

İstedadlı şair, təvazökar, səmimi insan Qəşəm Çıraqlının işıqlı xatirəsi qələm yoldaşlarının qəlbində yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti.- 2022- ci il.- 23 iyul.- S. 32.